# Türkmənistanın Azərbaycana yeni təyin olunmuş səfiri Şuşaya səfər edib



**Türkmənistanın Azərbaycana yeni təyin olunan səfiri Qurbanməmmet Elyasov Şuşaya gedib.**

Bu barədə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov "Twitter"də bildirib. "Türkmənistanın Azərbaycana yeni təyin olunmuş səfiri cənab Qurbanməmmet Elyasov Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya ilk səfərini edib. Səfir şəhərin tarixi yerləri ilə tanış olub, ona aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verilib". Türkmənistanlı diplomat həmçinin işğal dövründə Şuşanın tarixi-memarlıq abidələrinə vurulmuş ziyan barədə də məlumatlandırılıb.

# Nardaranda 26 yaşlı gənc dənizdə boğulub



**Nardaran qəsəbəsində 26 yaşlı oğlan dənizdə batıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən Trend-in sorğusuna cavab olaraq bildirilir ki, 26 yaşlı şəxsin Nardaranda dənizdə boğularaq ölməsi faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda araşdırma aparılır.

*Xatırladaq ki, avqustun 20-də paytaxtın Sabunçu rayonu, Nardaran qəsəbəsi ərazisində dənizdə 1996-cı il təvəllüdlü Rəşad Əliyev boğularaq ölüb.*

❒ № 149 (5671), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 23 avqust 2022-ci il (çərşənbə axşamı)



# Snayperlərimiz beynəlxalq yarışda yeni tapşırıqları icra ediblər

**"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Snayper həddi" müsabiqəsində iştirak edən komandalar ikinci mərhələnin növbəti çalışmalarını yerinə yetiriblər.**

Müdafiə Nazirliyindən "Şərq"-ə verilən məlumata görə, çalışmanın şərtlərinə uyğun olaraq snayper cütlükləri əvvəlcə 25 metrədək məsafədə yerləşən hədəflərə tapançadan, daha sonra 800 metr məsafədə yerləşən xüsusi hədəflərə snayper tüfənglərindən atəş açıblar.

İran İslam Respublikasının Yəzd şəhərində keçirilən müsabiqədə növbəti çalışma zamanı hərbi qulluqçularımız 200-300 metr məsafədə yerləşən üç hədəfi məhv edərək qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəliblər.



# "Bölgələrimizdə çox böyük istedadlar var"

Prezident İlham Əliyev: "Onları seçib tapmaq, idmana cəlb etmək lazımdır"

**"İndi bütün idman qurumlarının əsas məqsədi Yay Olimpiya Oyunlarına hazırlıq olmalıdır".**

Bu barədə Prezident İlham Əliyev V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşdəki çıxışında bildirib. Dövlət başçıları qeyd edib ki, Yay Olimpiya Oyunlarına cəmi iki il qalıb: "Ona görə yaxın aylarda artıq hazırlığa başlamaq lazımdır, ondan sonra təsnifat turnirləri başlayacaq, komandamız formalaşacaq.

(səh.2)

# Ərdoğan yaxın tarixdə hədəfinə çatacaq

Türkiyə Prezidenti ümid edir ki, Rusiya və Ukrayna liderlərini görüşdürəcək



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya və Ukrayna dövlət başçıları - Vladimir Putin və Volodimir Zelenski arasında görüş təşkil etmək niyyətindədir.**

"Report" "Haber Global"a istinadən xəbər verir ki, Ərdoğan bu barədə Nazirlər Kabinetinin toplantısından sonra mətbuata bəyanatlarla çıxışında məlumat verib. Onun sözlərinə görə, Türkiyə Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə həllinə çalışır: "Hədəfimiz yaxın tarixdə Putinlə Zelenski arasında İstanbulda görüş təşkil edərək bu böhranı kökündən həll etməkdir".

# Zaman daralır

## Ermənilər anlamalıdır ki, prosesin geri dönüşü yoxdur



*Avqustun 25-i, ən uzağı sentyabrın 1-nə kimi Laçın və ətraf kəndlər ordumuza təhvil verilməlidir*

**Laçının Zabux kəndinin bütün sakinləri evlərini tərk ediblər. Bu barədə özünü "Demokratik Birlik" partiyasının sədri elan etmiş, kənddə qanunsuz yaşayan Suren Petrosyan feysbuk səhifəsində yazıb.**

Xatırladaq ki, Azərbaycan Laçından yan keçərək Qarabağı Ermənistanla birləşdirən yolun çəkilişini başa vurub. Alternativ yolun bitməsi o deməkdir ki, yaxın günlərdə Laçın dəhlizinin keçdiyi rayon mərkəzi və ətraf ərazilər Azərbaycanın nəzarətinə keçəcək.

(səh.2)

# Xaricdəki azərbaycanlı gənclər ayağa qalxdı

## Ermənilərin Laçında meşəni yandırması pislənilib



**Dünya azərbaycanlıları ölkəmizin Laçın rayonunda işğalçı Ermənistan tərəfindən 1992-ci ildə qeyri-qanuni şəkildə yerləşdirilmiş ermənilərin ərazini tərk edərkən Zabux kəndində evləri və Laçın-Zabux yolundakı meşə sahəsini yandırmalarını hiddətlə pisləyirlər.**

Bu barədə "Şərq"ə Diaspora İş üzrə Dövlət Komitəsindən məlumat verilib. Gürcüstanda fəaliyyət göstərən "Real News Media"nın rəhbəri Almaz Nadiroğlunun təşəbbüsü ilə "Ermənilərin ekoloji soyqırımını durdurun!"

(səh.2)



# Müəllimlərin vəzifə maaşlarına əlavələr təsdiqləndi

**Nazirlər Kabineti "Dövlət ümumi təhsil müəssisələrinin direktor və direktor müavinlərinin (təhsilalanların sayına görə) və həmin müəssisələrin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin (sertifikatlaşdırmanın nəticəsinə görə) vəzifə maaşlarına aylıq əlavələrin təsdiq edilməsi haqqında" qərar verib.**

Qərara əsasən, sözgedən şəxslərin vəzifə maaşlarına aylıq əlavələr təsdiqlənib.

Bu Qərar 2022-ci il sentyabrın 1-dən qüvvəyə minir.

# 8 nəfər ölüb

Son sutkada 144 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 144 yeni yoluxma faktı qeydə alınıb, 112 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 8 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 808 713 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 795 222 nəfər müalicə olunaraq sağalıb, hazırda 3 698 aktiv xəstə var. Bu günə qədər 9 793 nəfər vəfat edib.*

# Daşkəsəndə gəlinini qətlə yetirən qayınata tutulub



**Avqustun 22-i, saat 11 radələrində Daşkəsən rayonunun Bayan kəndi ərazisində 1993-cü il təvəllüdlü Nəzakət Həsənovanın öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Daşkəsən rayon prokurorluğundan verilən xəbərə görə, aparılan araşdırmalarla zərərçəkmişin qayınatası, 1964-cü il təvəllüdlü Məhəmmədəli Mustafayevin şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Nəzakət Həsənovaya bıçaqla xəsarətlər yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

*Faktla bağlı Daşkəsən rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Məhəmmədəli Mustafayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda istintaq tədbirləri davam edir.*



# Sorğunun nəticələri təəccüblü deyil

Torpaqlarımız sonuncu separatçıdan, terrorçu və işğalçıdan təmizlənənədək antiterror əməliyyatları davam etməlidir

(səh.3)

# Laçında iki hərbçimiz minaya düşüb

Əsgərlərimiz riskli zonalarda daha diqqətli olmalıdır



(səh.2)

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**



# Minalar yurda dönüşü əngəlləyir

## Qarabağa Böyük Qayıdışın yolu kommunikasiyaların bərpasından keçir

**Laçın şəhərindən otuz il əvvəl məcburi köçkün düşən və respublikanın müxtəlif yerlərində müvəqqəti məskunlaşan həmvətənlərimizin doğma yurda qayıdışa hazırlanması barədə Prezident İlham Əliyevin verdiyi tapşırığın icrasına başlanıb. Bu məqsədlə avqustun 16-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində onların bir qrupu ilə görüş keçirilib. Dövlət Komitəsindən verilən məlumata görə, iclas zamanı torpaqların işğaldan azad edilməsi uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edilib.**

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun erməni faşizmi üzərində qələbəsi nəticəsində düşmənin bir güllə atmadan tərk etdiyi Laçın şəhərində qanunsuz məskunlaşdırılmış ermənilərin bu ərazidən çıxarılması dövlətimizin gücünün, qüdrətinin növbəti nümayişi kimi dəyərləndirilib. Qanunsuz məskunlaşdıqları yerlərdən çıxarkən ermənilərin evləri və meşə sahələrini yandıraraq, yenidən vandalizm törətməsi qətiyyətlə pislənilib. Laçınlılar məcburi köçkünlük dövründə onlara hərtərəfli dövlət qayğısı göstərildiyini bildirərək, həm buna görə, həm də ata-baba torpaqlarına qayıtmaq arzularını gerçəkləşdirdiyi üçün Prezident İlham Əliyevə minnətdarlıq bildiriblər. Birinci vitse-prezident Mehriban Əliyevanın köçkünlüklə bağlı problemlərin həlli üçün gördüyü işlər dərin razılıq hissi ilə qeyd edilib. Dövlət Komitəsinin Böyük Qayıdışa hazırlıq məqsədilə həyata keçirdiyi tədbirlər barəsində görüş iştirakçılarına ətraflı məlumat verilib. Bir daha diqqətə çatdırılıb ki, məcburi köçkünlüyü başa çatan vətəndaşların könüllü, təhlükəsiz şəraitdə və ləyaqətlə doğma yurda qayıdışını təmin etmək üçün dövlətimizin başçısının tapşırığı ilə bütün lazımi tədbirlər həyata keçirilir. Görüşdə qayıdışa hazırlıq və köçürülmənin təşkili ilə bağlı açıq və səmimi fikir mübadiləsi aparılıb. Laçınlılar doğma yurda qayıdıb, onun sosial-iqtisadi inkişafına, işğalın fəsadlarının aradan qaldırılmasına töhfə verməyə, dağlar qoynundakı şəhəri dirçəltməyə hazır olduqlarını bildiriblər. Tədbir iştirakçıları Laçına qayıdış xəbərini sevinclə qarşıladıqlarını və tezliklə qayıdacaqlarına ümidvar olduqlarına bildiriblər.

Şübhəsiz, Qarabağa Böyük Qayıdışın yolu kommunikasiyaların bərpasından və işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işləri aparılmasından keçir. Lakin düşmən ölkənin hərbi quldur dəstələrinin 30 il müddətində Qarabağı mina və partlamamış sursat məzarlığına çevirməsi məcburi köçkünlərin öz yurdlarına dönüşünü ciddi surətdə əngəlləyir. İrimiqyaslı layihələrin sürətlə gerçəkləşdirilməsinə mane olur. Əlbəttə, Azərbaycanın işğaldan azad edilmiş ərazisində hazırda Milli Minatəmizləmə Agentliyi və Türkiyə hərbi istehkamçıları, ermənilər yaşayan hissədə isə Rusiya Müdafiə Nazirliyi minatəmizləmə işlərini sürətlə davam etdirirlər. Bu prosesin uğurla aparılması Qarabağda kommunikasiyaların bərpa edilməsinə və quruculuq işlərinə daha geniş meydan açır. Ərazilərin minalardan daha tez təmizlənməsi isə müvafiq xəritələrdən istifadə edilməsindən asılıdır. Ermənistan iki ilə yaxındır verdiyi vədlərə əməl etmir. Rəsmi Bakı beynəlxalq qurumlarda regional məsələlərə dair görüşlərdə rəsmi İrəvandan minaladığı ərazilərin xəritəsini verməsini tələb edir. Qarşı tərəf isə bu istiqamətdə üzərinə götürdüyü öhdəliklərə əməl etmir. Torpaqlarımızın böyük bir hissəsi Ermənistan silahlılarından təmizlənsə də, onların basdırdıqları minaların dəqiq xəritələrini verməmələri hələ də işğalçı siyasətin davam etdirilməsi deməyə əsas verir. Təəssüf ki, Azərbaycan dövləti torpaqlarının işğal altında qaldığı müddət ərzində üzləşdiyi ədalətsizliklərlə yenə qarşılaşır. Beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı yürütdüyü gizli mühəribə və terror siyasətini görməzlikdən gəlir.

2020-ci ilin noyabrın 10-dan indiyədək azad edilmiş ərazilərdə mina partlaması nəticəsində 7 hərbi qulluqçu, 32 mülki şəxs həlak olub. Baş Prokurorluğun məlumatına əsasən, mina partlaması zamanı 117 hərbi qulluqçu, 67 mülki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 2 il ərzində Ermənistanın apardığı səssiz müharibə nəticəsində Azərbaycanın 39 vətəndaşı həyatını itirib, 184 vətəndaşı isə yaralanıb. Bu, qeyri-döyüş şəraitində Azərbaycana böyük maddi-mənəvi zərbədir. Sayın belə çox olması sübut edir ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin böyük hissəsi minalanıb. Hətta 2020-ci ildə Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk edərkən ermənilər həmin ərazilərə əlavə minalar basdırıblar. Rəsmi İrəvan bu davranışı ilə demokratik prinsiplərə, beynəlxalq hüquqa hörmətsizlik etdiyini göstərir. Diqqətə çatdıraq ki, ərazilərin minalardan təmizlənməsi və Azərbaycanla Ermənistan arasında əlaqələrin qurulmasına vasitəçilik edənlərdən biri də Rusiyadır. Ermənistan hökumətinin başçısı minalardan təmizlənmə məsələsində əməkdaşlıq etməkdə Rusiya və onun başçısının beynəlxalq imicinə də zərbə vurur. Habelə Avropa İttifaqı, ABŞ-ın sülhyaratma, əməkdaşlığa bağlı çağırışları qulaqardına vurulur. Xatırladaq ki, daha iki hərbçimiz - Vüqar Süleymanov və Heydər Gülməliyev Laçında minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə avqustun 15-dən 20-dək 379 mina aşkarlandığını deyib. Onlardan 239-u piyada əleyhinə, 140-ı tank əleyhinə minadır. Digər 125 isə partlamamış hərbi sursatlardır. Ümumilikdə, son günlərdə 562 hektar ərazinin mina və PHS-lərdən təmizləndiyi açıqlanıb.

***"Burada görəcəyimiz ən vacib iş beynəlxalq təşkilatlar və xarici ölkələr vasitəsi ilə İrəvana təzyiqlərin artırılmasına nail olmaqdır. Məqsədimizə nail olmaq üçün çalışmalıyıq ki, Ermənistan həqiqi mina xəritələrini Azərbaycana təhvil versin"***

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə bildirib ki, ötən iki il ərzində Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi istiqamətində maksimum dərəcədə fəaliyyət icra edib. Deputatın sözlərinə görə, qısa zamanda ANAMA-nın strukturu genişləndirilib:** "Bir çox dövlət qurumu minaların təmizlənməsi istiqamətində ciddi addımlar atır, səylər göstərirlər. Azərbaycan beynəlxalq qurumlar müstəvisində də daim minalanmış ərazilərlə bağlı problemi qaldırır. Ermənistana təzyiq göstərilməsi üçün addımlar atılır. Burada görəcəyimiz ən vacib iş beynəlxalq təşkilatlar və xarici ölkələr vasitəsi ilə İrəvana təzyiqlərin artırılmasına nail olmaqdır. Məqsədimizə nail olmaq üçün çalışmalıyıq ki, Ermənistan həqiqi mina xəritələrini Azərbaycana təhvil versin. Əlbəttə, sadəcə dövlətimiz deyil, bütün qurumlar, QHT-lər, bütün ictimaiyyət də bu istiqamətdə çalışmalı, prosesə öz töhfələrini verməlidirlər. Bu çox önəmli məsələdir. Ərazilərimizin minalardan təmizlənməsi və bölgənin təhlükəsizliyinin tam təmin olunması bizim üçün çox əhəmiyyətlidir. Çünki bu məsələ Böyük Qayıdışın daha sürətlə həyata keçirilməsinə mane olan amillərdəndir. Problemi aradan qaldırmaq üçün bacardığımızı etməliyik və bunun da əsas yolu Ermənistana təzyiqlərə və reallığı əks etdirən xəritələrin alınmasına nail olmaqdır".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**


**ELANLAR**

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 02.09.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: "Sabunçu Elmi İstehsalat Birliyi" TASC-yə məxsus 04/1 Lot üzrə İlmetsan qaldırıcı kran 1 ədəd 24300 man., 04/2 Lot üzrə 2 ədəd hava tutumu B-25 (v-8, 0m3) 1 ədəd 3150 man., üm/qiy: 6300 man., 04/3 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 10 ton)-17100 man., 04/4 Lot üzrə 3 ədəd körpülü kran KME (yük/q 5 ton) 1 ədəd 13500 man. üm/qiy: 40500 man., 04/5 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 7ton) 16200 man., 04/6 Lot üzrə 1 ədəd çatmalı kran KK-5(yük/q 5 ton) 20700 man.., 04/7 Lot üzrə 5 ədəd sınaq stendi 1 ədəd 315 man., üm/qiy: 1575 man., 04/8 Lot üzrə 2 ədəd metal əridmə sobası 1 ədəd 15300 man., üm/qiy: 30600 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan of ce@e-herracmerkezi.az; https://www.facebook.com/

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra şöbəsi. Hərrac 02.09.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 05/1 Lot üzrə Abdullayev Şahmar Rəcəb oğluna məxsus Bakı şəh., Sabunçu ray., Ramana qəs., E.Məhərrəmli küç., dalan 6, ev 2, mənzil 12 (2 mərtəbəli binanın 2-ci mərtəbəsi, 3 otaq, üm/s 52,75 kv.m, təmirliliyi orta) - 31500 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan of ce@e-herracmerkezi.az; https://www.facebook.com/

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Nizami rayon İcra Şöbəsi.Hərrac 02.09.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlaklar: "ORIENT" İK Firmasına məxsus Bakı şəh., Nizami ray., M.Əliyev küç., ev 2408-ci məh.. ünvanda yerləşən 01/01 lot üzrə 14 nəfərlik stol (23 ədəd) 1 ədəd 119 man., üm/qiy 2737 man., 01/02 lot üzrə 16 nəfərlik stol (2 ədəd)1 ədəd 105 man., üm/qiy 210 man., 01/03 lot üzrə divan (foye üçün 3 ədəd) 1 ədəd 210 man., üm/qiy 630 man., 01/04 lot üzrə furşet stolu (bəzəkli 1 ədəd) 140 man., 01/05 lot üzrə kondisioner (böyük "Aux" 2 ədəd) 1 ədəd 2800 man., üm/qiy 5600 man., 01/06 lot üzrə soba (qril üçün 1 ədəd) 105 man., 01/07 lot üzrə soba (3 gözlü 1 ədəd) 210 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü ərzində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan of ce@e-herracmerkezi.az; https://www.facebook.com


# Sorğunun nəticələri təəccüblü deyil

## Torpaqlarımız sonuncu separatçıdan, terrorçu və işğalçıdan təmizlənənədək antiterror əməliyyatları davam etməlidir



**Sosial Tədqiqatlar Mərkəzi (STM) Qarabağda aparılan antiterror əməliyyatı, onun hərbi-siyasi mahiyyəti və bu barədə məlumatlılıq səviyyəsinə dair ictimai rəy sorğusu keçirib. STM-nin yaydığı məlumatda bildirilib ki, sorğu çərçivəsində ölkə üzrə 384 respondentin rəyi öyrənilib.**

Respondentlərin təqribən yarısı hesab edir ki, aparılan hərbi əməliyyatlar erməni terrorçularının Qarabağdan çıxarılmasının əsas təminatıdır. Rəyi öyrənilənlərin mütləq əksəriyyəti - 80,5 faizi Azərbaycanın hərbi əməliyyatları bundan sonra da davam etdirməli olduğunu düşünür. 84 faiz respondent isə hərbi əməliyyatları erməni terrorçularının Qarabağdan çıxarılmasının əsas təminatı olaraq gördüklərini deyiblər.

**Sosial Tədqiqatlar Mərkəzinin növbəti sorğusunu və nəticələri barədə "Şərq"ə danışan millət vəkili Elman Məmmədov bildirib ki, STM hər zaman olduğu kimi bu dəfə də çox vacib məqama işıq tutub. Parlament üzvü vurğulayıb ki, sorğunun nəticələri təəccüblü deyil:** "Demək olar ki, hər bir Azərbaycan vətəndaşının fikri odur ki, torpaqlarımız sonuncu separatçıdan, terrorçu və işğalçıdan təmizlənənədək antiterror əməliyyatları davam etməlidir. Sorğunun nəticələri də bunu göstərir. Xalqın istəyini reallaşdırmaq üçün dövlətimizin siyasi iradəsi, iqtisadi gücü var. Vətəndaşların rəyi bir daha sübut edir ki, Ali Baş Komandanımızın orduya rəhbərliyi, Silahlı Qüvvələrimizin hərbi əməliyyatları xalqımızı sevindirir və onların ürəyincədir. Xalq arxayın və rahatdır ki, onun təhlükəsizliyi ən yüksək səviyyədə təmin olunur. Azərbaycan xalqı böyük ümid və səbirsizliklə gözləyir ki, bu gün Laçından, Zabuxdan iti qovan kimi çıxartdığımız ermənilər, separatçılar sabah Xankəndi, Xocalı və Xocavənddən də gedəcəklər. Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Ərazimizdə bir nəfər qanunsuz silahlı, quldur erməni qalmamalıdır. Bir müddət öncə Qarabağda apardığımız "Qisas" anti-terror əməliyyatı da göstərdi ki, Azərbaycan Ordusu istənilən vaxt, istənilən bölgədə hərbi əməliyyatlar keçirməyə qadirdir. Ermənilərin Laçın şəhəri, Zabux və Sus kəndlərindən sürətli köçünün səbəbi də məhz uğurlu anti-terror əməliyyatının nəticəsi idi. Ermənilər yaxşı bilir ki, cığallıq onlara baha başa gələcək".

*E.Məmmədov Laçın şəhəri və Zabux kəndindən çıxan ermənilərin törətdikləri vəhşiliklərə də münasibət bildirib:* "1990-cı illərdə vəziyyət tamam başqa cür idi. Real informasiyanı dünya ictimaiyyətinin diqqətinə çatdırmaq çox çətin başa gəlirdi. İndi durum çox fərqlidir. Adi bir xəbər böyük sürətlə dünyaya yayılır. Bu gün Zabuxdakı evləri yandırıb çıxan ermənilər 30 il öncə necə idilərsə, indi də eyni təfəkkürdədir. Yenə də öz vandallıqlarından, vəhşiliklərindən geri qalmırlar. İşğalçı, talançı kimi gələn ermənilər bu gün də eyni davranışla bölgəni tərk edirlər. Ermənilər qəbilə düşüncəsinə malik vəhşi, islaholunmaz toplumdur. Onların başının üzərində daim yumruq olmalıdır, çünki ancaq güc gördəndə deyiləni edirlər".

**İsmayıl Qocayev**


**Elan**

Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal massivi 2836 məhəllə ünvanda yerləşmiş tikilməkdə olan yaşayış binasının 7-ci mərtəbəsində 42 №-li mənzil "Dizayn" Mənzil Tikinti Kooperativi (MTK) gələcəkdə "Kooperativ" adlanan tərəfindən Bilalov Hilal Bilal oğluna verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 1054-cü məhəllə, 6-cı blok, 20-ci mərtəbə ünvanında № GH-MA-191115-176 "Grand Hayat" MTK tərəfindən Abasov Səlim Rasim oğluna verilmiş maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.



**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2319**

# Ukraynalı uşaqlar Bakıda reabilitasiyadan keçəcək

## “Onlar zamanla dərdlərinə şərik olanların, yardım etmək istəyənlərin olduğunu görəcək”



**Heydər Əliyev Fondu və Azərbaycan Səhiyyə Nazirliyinin dəstəyi ilə Ukraynadakı vəziyyətlə əlaqədar bir qrup uşaq Bakıda reabilitasiya keçəcək. Avqustun 21-də 7-17 yaş arasında olan valideyn himayəsindən məhrum 28 uşaq və onları müşayiət edən 4 nəzarətçi Bakıya gəlib.**

Heydər Əliyev Fondu və Azərbaycan Səhiyyə Nazirliyinin dəstəyi ilə Ukraynadakı vəziyyətlə əlaqədar bir qrup uşaq Bakıda reabilitasiya keçəcək.

Avqustun 21-də 7-17 yaş arasında olan valideyn himayəsindən məhrum 28 uşaq və onları müşayiət edən 4 nəzarətçi Bakıya gəlib.

Hava limanında qarşılanan uşaqlar xüsusi ayrılmış avtobuslarla Səhiyyə Nazirliyinin Sanator-Kurort Reabilitasiya Mərkəzinə aparılaraq yerləşdirilib. Burada 21 gün ərzində uşaqlara psixoloji və ehtiyac olduqda tibbi reabilitasiya xidmətləri göstəriləcək.

**Psixoloq Azad İsazadə ukraynalı uşaqlara göstərilən humanitar yardımı müsbət qiymətləndirib. O, ”Şərq”ə açıqlaması zamanı qeyd edib ki, Ukraynaya hərbi yardım göstərə bilməsək də, insanlara, əsasən də uşaqlara köməyimiz önəmlidir:** ”Azərbaycan da eyni prosesləri yaşayıb. İki ilə yaxındır ki, müharibədən çıxmışıq və oxşar problemlərlə rastlaşmışıq. Bu səbəbdən kifayət qədər təcrübə yığan peşəkarlarımız var. Döyüşlər gedən zaman bir qrup psixoloqla birlikdə Qarabağ zonasında yerli əhaliyə, o cümlədən azyaşlılara eyni psixoloji yardımı həyata keçirmişik. İki gün öncə YAŞAT Fondunun yardımı ilə şəhid övladları üçün yay düşərgəsi keçirildi. Orada həmçinin uşaqlara psixoloji dəstək də göstərilirdi. Özüm də orada iştirak etmişəm. Ümid edirəm ki, burada da kifayət qədər peşəkar mütəxəssislər olacaq”.

*Psixoloq hesab edir ki, uşaqların mühiti dəyişməsi və yeni insanlarla tanış olması da bir növ psixoloji dəstəkdir:* ”Belə vəziyyətlərdə insanlar ilk növbədə düşünür ki, bu prosesi yalnız özüm yaşayıram. Lakin onlar Bakıda yalnız olmadıqlarını anlayacaqlar. Uşaqlar zamanla onların dərdlərinə şərik olanların, yardım etmək istəyənlərin olduğunu görəcək. Bunun özünün də müalicəvi effekti var. Əlavə olaraq, peşəkar psixoloqlar da uşaqlarla işləsə, şübhəsiz ki, pozitiv nəticələr əldə olunacaq”.

**Çimnaz Şahlar**



**Bu il avqustun 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 662,3 milyon manat təşkil edib. Azərbaycan Mərkəzi Bankı bildirir ki, bu, iyulun 1-i ilə müqayisədə 0,2 faiz çoxdur.**

Bununla belə, ölkədə problemli kreditlər ilin əvvəlinə nisbətən 7,9 faiz, son 1 ildə isə 29,35 faiz azalıb. İyulun sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 3,5 faiz təşkil edib.

# Azərbaycanda problemli kreditlər azalıb

## Böyük ehtimalla kreditlərin böyük hissəsi batıb

Bu nisbət ötən ilin sonuna 4,2 faiz, ötən il iyulun sonuna isə 6,1 faiz olub.

**Problemli kreditlərin azalmasını ”Şərq” üçün şərh edən iqtisadçı Əkrəm Həsənov bildirib ki, 29 faiz azalma iki yolla baş tuta bilər, ya bu kreditlər qaytarılıb, ya da batıb:** ”Təcrübədən aydındır ki, əgər 29 faiz azalma varsa, burada hər iki amil var. Bank bir hissəni müştəridən geri ala bilib, qalan hissə isə batıb. Lakin burada hissələrin faizi göstərilmir. Təəssüflər olsun ki, statistikanı verən qurumlar bu açıqlamanı vermir. Buna görə də burada böyük hissənin batdığına dair şübhə yaranır. Nə qədər çox kredit qaytarılıbsa, bu o qədər yaxşı haldır. Əgər çox kredit geri alına bilinməyibsə, yəni batıbsa, bu, bank sistemi üçün xoşagəlməzdir.

Bu məlumatın açıqlanmaması ona işarə edir ki, problemli kreditlərin xeyli hissəsi məhz batıb. Ona görə də bu məlumatı vermək onlara sərf etmir. Çünki bu o deməkdir ki, bank sistemində vəziyyət yaxşı deyil. Digər tərəfdən bu, başqa problemli krediti olan müştərilərə də neqativ mesaj ötürür”.

**Çimnaz**

# Dünyada unun və buğdanın qiyməti ucuzlaşır

## Bizdə isə əksi baş verir, çünki inhisarçılıqdır



**Bir neçə gün öncə unun qiymətində artım müşahidə olundu. Belə ki, 50 kiloqramlıq un kisəsinin qiyməti 36 manatdan 40 manata qalxıb. Unun qiymətindəki bu artım çörəyə və un məmulatlarına da təsirsiz ötüşməyib.**

Açıqlamalara görə, çörəyin qiyməti 5 qəpik bahalaşaraq 500qr-lıq ənənəvi çörək 55 qəpik, 600qr-lıq 65 qəpik, 650 qr-lıq isə 70 qəpik həddinə çatıb. Bu artım rayonlarda özünü daha kəskin göstərib. Bildirilir ki, kisəsi 40 AZN yüksələn un bəzi regionlarda 43-44 AZN təklif olunub.

**Unun iki pilləli bahalaşdığını deyən iqtisadçı Akif Nəsirli ”Şərq”ə bildirib ki, çox az satış mərkəzi bu məhsulu təyin edilən qiymətə satır:** ”Regionlarda un satışı ilə məşğul olan mağazalar bu məhsulu topdan satış mərkəzlərindən alırlar və hər kiloqramının üstünə 5-10 qəpik qoyaraq mənfəət əlavə edirlər. Hazırkı qiymət artımı ikipillədir. Birinci pillədə inhisarçı şirkətlər dayanıb. Hansı ki, manapoliya ilə məşğuldurlar. İkinci sırada isə satış mərkəzləri dayanır və onlar da mənfəət gəliri güdürlər. Lakin artımdakı əsas amil buğda idxalının və un istehsalının inhisarda olmasıdır. Hazırda dünyada unun və buğdanın qiyməti aşağı düşür. Bir ay əvvəl 8 faiz, indi isə 12 faiz ucuzlaşma müşahidə olunur. Ancaq Azərbaycanda isə əksinə, proses gedir. Bunların səbəbi inhisarçılıqdır”.

**Nihat**

### *Sosioloq: "Zaman keçdikcə insanlar kişilərin şortik geyinməsinə də tolerant yanaşacaq"*

**İsmayıllı rayonunda yerli turistlərə təzyiq edilib. Hadisənin görüntüləri sosial şəbəkələrdə yayılıb. Rayonun Qalacıq kənd sakinləri çay sahilində dincəlmək istəyən iki nəfər uzun şort geyinən kişinin oradan uzaqlaşmasını tələb ediblər.**



# Mühafizəkarlar səbirsizdir

## İsmayıllı rayonunda şortik mübahisəsi yaranıb

Görüntülər sosial mediada birmənalı qarşılanmayıb. Kimi ”Azərbaycan kişisi şort geyinməz” deyib, kimisi isə ”hər kəs istədiyini geyinə bilər, biz tolerant ölkəyik” fikirini müdafiə edib. Bəs bu aqressiyanın kökündə nə dayanır? Azərbaycanlı turistlərlə xarici turistlərin fərqi nədir?

**Bu tip geyimlərin cəmiyyətin mühafizəkar kəsimi tərəfindən hələ də qəbul edilmədiyini deyən sosioloq Üzeyir Şəfiyev ”Şərq”ə bildirib ki, zaman keçdikcə insanlar belə geyimlərə də tolerant yanaşmağı öyrənəcək:** ”Uzun müddət bizim cəmiyyətdə xüsusi etiket qaydaları var idi. Xüsusilə də geyim formasında yazılmamış qanunlar ortaya çıxmışdı. Qadın və kişi geyim tərzləri bu normalarla təyin edilirdi. Bunlar zaman-zaman cəmiyyətimizdə mövcud olmuş stereotip yanaşma tərzi ilə bağlıdır. Azərbaycan müstəqil olduqdan sonra artıq dünyaya inteqrasiya olundu. Nəticədə də fərqli mədəniyyətləri, geyim tərzləri olan millətlər ölkəmizə axın etdi. Çünki Azərbaycanın gözəl yerləri var və bunlar əcnəbilər üçün böyük macəra marağı yaradır. Bununla da bizimkilər xaricilərdə gördükləri geyimləri və bəzi adətləri imitasiya etdilər. Amma imitasiya cəmiyyətin mühafizəkar kəsimi tərəfindən adekvat qarşılanmadı. Onlar kişilərin şort, qadınların isə bir az açıq-saçıq geyinməsini qəbul etmirlər. Keçmişdə bunlar əcnəbi turistlərlə, yerli əhali arasında insidentlərə səbəb olurdu. Lakin dövlət bu maraqları tənzimlədi. İndi isə gözlər daha çox Azərbaycan kişisinin geyim tərzinə yönəlib. Ancaq düşünürəm ki, vəziyyət gələcəkdə öz həllini tapacaq və cəmiyyət azad geyim tərzini qəbul edəcək. Nəticədə də bir daha belə hallarla qarşılaşmayacağıq”.

**Nihat Müzəffər**



# Zaporojye AES dünya üçün təhlükəlidir

## Region ikinci Çernobıl faciəsini yaşaya bilər və miqyası daha geniş olar

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zaporojye Atom Elektrik Stansiyasındakı vəziyyət barədə rusiyalı həmkarı Vladimir Putinlə danışacağına söz verib. Ərdoğan bildirib ki, Zaporojye təsadüfi məsələ deyil. Hazırda ərazidə ukraynalı mütəxəssislər var. Türkiyə liderinin sözlərinə görə, Ukrayna Prezidenti V.Zelenskinin Ankaradan istədiyi Zaporojyenin Rusiya minalarından təmizlənməsi və mövcud durumda təhdidin azalmasıdır:**

”Çernobılın təkrarlanmasını istəmirik” deyəndə də bunu nəzərdə tutmuşdum. Bu mövzuda Rusiya Prezidenti Vladimir Putinlə danışacağam. Rusiya dünyadakı sabitlik naminə bu addımı atmalıdır. Ərdoğan həmçinin Zelenskiyə Putinlə Türkiyədə görüş keçirməyi təklif etdiyini bildirib. Məlumat üçün bildirək ki, Ərdoğan Rusiya-Ukrayna müharibəsi başlayandan sonra ilk dəfə, ötən həftə Ukraynaya səfər edib. O, Lvov şəhərində BMT baş katibi Antonio Quterreş və həmkarı Vladimir Zelenski ilə ikitərəfli və üçtərəfli görüşlər keçirib. Liderlər Ukraynadakı durumu, o cümlədən taxıl ixracı prosesini müzakirə ediblər.

**Ərdoğanın açıqlamasını ”Şərq”ə təhlil edən politoloq Əhəd Məmmədli bildirib ki, Zaporojye AES təkcə Türkiyə, Rusiya və Ukraynanın deyil, bütün dünyanın gündəmindədir. Analitik qeyd edib ki, BMT-nin baş katibi A.Quterreş də Ərdoğanla görüşündə atom elektrik stansiyası haqqında narahatlığını xüsusilə dilə gətirib:** ”Zaporojye AES qeyri-ciddi məsələ deyil və kifayət qədər təhlükəlidir. Region ikinci Çernobıl faciəsini yaşaya bilər və miqyası daha geniş olar. Ona görə də bu məsələdə ortaq məxrəcə gəlmək olduqca vacibdir. Necə ki, Qərb və Türkiyə Rusiya-Ukrayna arasında ”taxıl razılaşması”nın imzalanmasına nail oldu, eləcə də AES məsələsində də anlaşma zəruridir.

***Necə ki, Qərb və Türkiyə Rusiya-Ukrayna arasında "taxıl razılaşması"nın imzalanmasına nail oldu, eləcə də AES məsələsində də anlaşma zəruridir***

Düşünürəm ki, Ərdoğan bununla bağlı Putini yola gətirə biləcək. Vurğulamaq lazımdır ki, hazırda Rusiya rəhbəri V.Putinə təsir göstərə bilən yeganə lider Ərdoğandır. Qərb Kreml rəhbəri ilə hansısa məsələni müzakirə etmək istədikdə Türkiyə lideri vasitəçi rolunda çıxış edir. Rusiya rəhbərinin kifayət qədər təhlükəli olan məsələyə biganə yanaşacağını zənn etmirəm”.

**İsmayıl Qocayev**

# Pensiya yaşı aşağı salınsın!

## Azərbaycanı daha uzunömürlülər ölkəsi adlandıra bilmərik

**Millət vəkili Qüdrət Həsənquliyev parlamentdə çıxışı zamanı ölkədə qadınlar üçün tətbiq edilən pensiya yaş həddindən danışıb. Deputat bildirib ki, Azərbaycanda qadınların pensiya yaşı aşağı salınmalıdır ki, gənc xanımlar üçün də iş imkanları genişlənsin: ”Bizdə çox zaman pensiya yaşını Avropa ölkələri ilə müqayisə edirlər. Amma nəzərə almaq lazımdır ki, orada ömür uzunluğu da yüksəkdir. Eyni zamanda bizdə minimum pensiyanın məbləği 240 manatdır. Hesab edirəm ki, bunu artırmaq lazımdır”.**



**Aynur Camal:** "Pensiya yaşı mütləq aşağı salınmaldır, qadınlar üçün bu, xüsusi önəm daşıyır"

**Məlahət İbrahimqızı:** "Pensiya üçün yaş həddinin dəyişdirilməsi, yenidən baxılması məsələsi parlamentdə hazırda gündəmdə deyil"

Deputat qeyd edib ki, Rusiyada 3 və daha çox uşağı olanlar çoxuşaqlı ailələr sayılır və belə ailələr 4 otaqlı mənzillə təmin olunurlar: ”Bizdə cəmi bir xanım icra başçısı var. Biz şərqdə ilk dəfə qadınlara səs vermək hüququ verən xalqıq. Məncə, kvorum olmalıdır. Qadınlar cəmiyyətin bütün institutlarında işləməlidir. Çox yaxşı haldır ki, Azərbaycanda Birinci vitse-prezident, eləcə də Milli Məclisin sədri xanımdır. Hesab edirəm ki, biz bu sahəyə xüsusi diqqət ayırmalı, xanımlarımız üçün iş imkanlarını genişləndirməliyik”.

**”Teleqraf Holdinq”in direktoru, keçmiş xanım deputat Aynur Camal ”Şərq”ə ölkədəki mövcud olan pensiya yaş həddindən danışarkən qeyd edib ki, millət vəkilinin fikirləri ilə razıdır. Onun sözlərinə görə, ölkədə həqiqətən də pensiya yaşının azaldılmasına böyük ehtiyac var:** ”Ümumiyyətlə, pensiya yaşının artırılması öncədən yanlış verilmiş qərar idi. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq naziri Səlim Müslümovun ”ideyası” idi. Bununla da ölkədə orta təbəqəyə böyük zərbə vuruldu. Bildiyimə görə, bu ideya ona aiddir. Azərbaycanda pensiya yaşı artırılan zaman bəzi Avropa və Skandinaviya ölkələri nümünə kimi götürüldü. Lakin həmin ölkələrdə orta yaş həddi olduqca yüksəkdir, insanlar uzun ömür sürür. Bu, orada yaşayan insanların stressiz həyat sürməsi ilə bağlıdır. Azərbaycanda isə vəziyyət fərqlidir. Bizim 20 faizdən artıq torpaqlarımızda 30 il erməni işğalı hökm sürüb. Müharibə və işğal faktorunun insanlarda yaratdığı gərginliyi, stres və depresiyanı, travmanı sözlə ifadə etmək mümkün deyil. Bütün bu amillər insanların yaşına, ömrünə təsir göstərir. Təəssüflər olsun ki, bu baxımdan Azərbaycanı uzunömürlülər ölkəsi adlandıra bilmərik”.

*A.Camalın qənaətincə, ölkənin bütün ziyalıları Q.Həsənquliyevin bu təklifini dəstəkləməlidir:*

”Media olaraq bu məsələni xüsusi şəkildə qabartmalıyıq ki, Milli Məclis bu qanuna yenidən baxsın. Azərbaycanda pensiya yaşı mütləq aşağı salınmalıdır. Qadınlar üçün isə bu, xüsusi önəm daşıyır. Eyni zamanda çoxuşaqlı analar üçün güzəştlər tətbiq olunmalıdır. Əvvəllər üç və daha çox uşağı olan qadınlar 52 yaşında pensiyaya çıxa bilirdilər. Düşünürəm ki, indi heç olmasa bunu 55 yaş civarında qadınlar üçün tətbiq edə bilərik. Deputatın da dediyi kimi, pensiya yaşını aşağı salmaqla gənc qadınlar üçün də iş imkanlarını artıra bilərik. Bununla insanlar uzun illər dövlət büdcəsinə ödədiyi verginin qarşılığını almış olar. Bu baxımdan məsələ mütləq diqqət mərkəzində saxlanılmalıdır”.

**Azərbaycanda qadınların işlə təminatının səviyyəsinə münasibət bildirən deputat Məlahət İbrahimqızı isə vurğulayıb ki, ölkəmizdə məşğulluqla bağlı çox ciddi proqram və layihələr həyata keçirilir:**

”Milli Məclisin qəbul etdiyi ”Məşğulluq haqqında” Qanununda qadınlara məşğulluq siyasətinin gender baxımından yanaşılması çox vacib prioritetdir. Bu qanunda Vətən müharibəsində ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canından keçmiş şəxslərə və ailələrinə, həmçinin qazilərimizə xüsusi imtiyazlar verilir. Həmçinin qeyd etmək lazımdır ki, qanun gender nöqteyi-nəzərindən ekspertizadan keçirilib. Ölkəmizdə qadınlarla bağlı kvota sistemi olmasa da, bütün iş sahələrində qadınlar təmsil olunur. İcra hakimiyyəti orqanlarında birinci şəxs olmadığı halda, ikinci şəxs qadınlardır. Bu yalnız dövlət məmuru statusu daşıyanlara aid deyil. Digər sahələrdə də qadınlarımızın iştirakı yüksək səviyyədədir. Humanitar sahələrdə - mədəniyyət, səhiyyə, təhsil kimi sahələrdə qadınların təmsilçiliyi 70-80 faizdir. Bu gün ölkədə yaradılan yeni iş yerlərində, Qarabağda aparılan quruculuq işlərində, regionların sosial-iqtisadi inkişaf proqramlarında qadınlar işlə təmin olunur. Pensiya üçün yaş həddinin dəyişdirilməsi, yenidən baxılması məsələsi isə parlament üçün hazırda gündəmdə deyil”.

**Çimnaz Şahlar**